# FROM THE CITY OF IRAVAN AND REGIONS OF THE ARMENIAN SSR DEPORTATION OF AZERBAIJANIS (1948-1953, 1988-1991 years)

**Jabi Bahramov**

ANAS, Institute of History named after A.A. Bakikhanov executive director,
PhD in history, associate professor
E-mail: djabibakhramov@mail.ru
https://orcid.org/0000-0003-0692-9016

**Abstract.** As the name suggests, the article talks about the deportation of the local Azerbaijani population from the city of Iravan and the regions of the Armenian SSR from 1948-1953 and from 1988-1991 by the fascist leadership of Armenia. These deportations, which took place in different years, were carried out on the basis of the decisions made by the former USSR state in the specified periods. In the article, the author examines the unfounded territorial claims of the USSR state against the Republic of Turkey and the policy implemented in the Republic of Azerbaijan after the Second World War. In this regard, in 1948-1953 and 1988-1991, despite the last resistance of the local Azerbaijani population, they were expelled from the city of Iravan and other provinces of the Armenian SSR. These deportations and the crimes committed against the people of Azerbaijan are extensively analyzed on the basis of historical facts.

**Keywords:** Iravan city, Republic of Turkey, Second World War, deportation, Azerbaijanis, fascist leadership of Armenia.

**To cite this article:** Bahramov J. (2022). From the city of Iravan and regions of the Armenian SSR deportation of azerbaijanis (1948–1953, 1988–1991 years). *Journal of Preschool and Primary Education*, Special issue – Iravan Teachers' Seminary, 2 (2022). pp. 121-138.
**Article history:** received – 17.05.2022; accepted – 30.06.2022

# İRƏVAN ŞƏHƏRİ VƏ ERMƏNİSTAN SSR RAYONLARINDAN AZƏRBAYCANLILARIN DEPORTASİYASI TARİXİNDƏN (1948-1953, 1988-1991-ci illər)

**Cəbi Bəhramov**

AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutunun icraçı direktoru,
tarix üzrə fəlsəfə doktoru, dosent
E-mail: djabibakhramov@mail.ru
https://orcid.org/0000-0003-0692-9016

**Annotasiya.** Adından da göründüyü kimi, məqalədə İrəvan şəhərindən və Ermənistan SSR rayonlarından 1948-1953 və 1988-1991-ci illərdə Ermənistanın faşist rəhbərliyi tərəfindən yerli azərbaycanlı əhalinin deportasiya olunmasından söhbət gedir. Müxtəlif illərdə baş verən bu deportasiyalar keçmiş SSRİ dövlətinin göstərilən dövrlərdə bilavasitə qəbul etdiyi qərarlar əsasında həyata keçirilmişdir. Məqalədə müəllif İkinci Dünya Müharibəsindən sonra SSRİ dövlətinin Türkiyə Cümhuriyyətinə qarşı əsassız ərazi iddialarını, Azərbaycan Respublikasında həyata keçirdiyi siyasəti araşdırır. Bu baxımdan 1948-1953 və 1988-1991-ci illərdə yerli azərbaycanlı əhalinin son müqavimətinə baxmayaraq, onlar İrəvan şəhərindən və Ermənistan SSR-nin digər vilayətlərindən qovulmuşlar. Bu deportasiyalar və Azərbaycan xalqına qarşı törədilmiş cinayətlər tarixi faktlar əsasında geniş təhlil edilir.

**Açar sözlər:** İrəvan şəhəri, Türkiyə Cümhuriyyəti, İkinci Dünya Müharibəsi, deportasiya, azərbaycanlılar, Ermənistan faşist rəhbərliyi.

**Məqaləyə istinad:** Bəhramov C. (2022). İrəvan şəhəri və Ermənistan SSR rayonlarından azərbaycanlıların deportasiyası tarixindən (1948–1953, 1988–1991-ci illər). *«Məktəbəqədər və ibtidai təhsil»*, Xüsusi buraxılış – İrəvan Müəllimlər Seminariyası, 2 (2022). səh. 121-138.
**Məqalə tarixçəsi:** göndərilib – 17.05.2022; qəbul edilib – 30.06.2022.

## Giriş / Introduction

Ermənistan SSR-də yaşayan azərbaycanlılar XX əsrin 30-40-cı illərində sovet totalitar rejiminin həyata keçirdiyi dəhşətli repressiya siyasətinin və II Dünya müharibəsinin vurduğu yaralar sağalmamış, yeni bir tarixi fəlakətlə üzləşdilər. 1945-ci ildə, müharibənin sonlarına yaxın SSRİ ilə Türkiyə Cümhuriyyəti arasında münasibətlərin kəskinləşməsi, erməniləri əlində təzyiq alətinə çevirən SSRİ dövlətinə Türkiyə Cümhuriyyətinə qarşı ərazi iddialarını bir daha gündəliyə gətirmək üçün bəhanə oldu. Əslində, türk xalqına qarşı hazırlanan bu xəyanət işinin təşəbbüskarı SSRİ dövlətinin başçısı İ.V.Stalin idi. Bu məsələ ilə bağlı sovet hüquq-mühafizə orqanlarına birbaşa rəhbərlik edən, İ.V.Stalinin yaxın silahdaşı olan L.P.Beriyanın oğlu S.L.Beriya özünün «Мой отец Берия. В коридорах Сталинской власти» (Москва, 2000) adlı əsərində atasının və İ.V.Stalinin türkəsilli xalqlara və Türkiyə dövlətinə nifrət etdiyini yazır və qeyd edirdi ki, II Dünya müharibəsinin sonuna yaxın dövrdə şəxsən İ.V.Stalin sovet elmi dairələrində və mətbuatında antitürk təbliğatının başlanmasına özü şəxsən göstəriş vermişdi. Belə antitürk təbliğatının başlanmasında əsas məqsəd Türkiyə dövlətini SSRİ xalqları qarşısında gözdən salmaq, guya 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələrinin Ermənistan SSR və Gürcüstan SSR üçün məqbul olmadığı iddiasını ortaya ataraq, Türkiyədən Şərqi Anadolu torpaqlarını qoparmaq idi.Bu ərazilər içərisində Türkiyə Cümhuriyyətinin 4 sancağı, o cümlədən Trabzon, Giresun torpaqları da daxil olmaqla, Şərqi Lazistanın Gürcüstan SSR-in tərkibinə verilməsi nəzərdə tutulmuşdu[1]. Bu çirkin siyasi niyyətləri reallaşdırmaq üçün İ.V.Stalin Gürcüstan SSR və Ermənistan SSR rəhbərlərinə və SSRİ EA-nın İctimai Elmlər Bölməsinə müvafiq elmi arayışın hazırlanması tapşırığı da vermişdi. Yaranmış fürsətdən istifadə edən Ermənistan K(b)PMK-nın birinci katibi Q.Arutinov SSRİ EA-nın həqiqi üzvü, diplomatiya tarixi üzrə tanınmış mütəxəssis Yevgeni Tarleni İrəvana dəvət edir və görüş zamanı qondarma "Qərbi Ermənistan"ın Ermənistan SSR-ə birləşdirilməsi üçün tarixi-hüquqi əsas verə biləcək elmi arayışın hazırlanmasını xahiş edir. Qeyd etmək lazımdır ki, akademik Y.Tarle tərəfindən hazırlanmış elmi arayış İ.V.Stalinin yanında müzakirə olunur, lakin heç bir qərar qəbul olunmur. Hazırlanmış arayışda Türkiyə Cümhuriyyətinin Qars və Ərdahan vilayətlərinin Ermənistan SSR tərkibinə verilməsi təklif olunurdu[2]. II Dünya müharibəsinin qurtarmasına bir neçə ay qalmış – yəni 1945-ci il, aprel ayının 19-da bütün ermənilərin VI katolikosu – baş patriarxın müavini, arxiyepiskop Gevorg Georekçiyan SSRİ dövlətinin başçısı İ.V.Stalinə 11 bənddən tərtib olunmuş ərizə

[1] S.Beriya. Moy otets Beriya. V koridorax stalinskoy vlasti. M., 2000, str. 256

[2] Nazim Mustafa. İrevan şehri. Ankara, 2015, s. 99.

ilə müraciət edir və onunla görüşür. İ.V.Stalin bu görüş zamanı ona xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR-ə köçməyə dəvət etməyi təklif edir, bundan əlavə Türkiyə Cümhuriyyətindən qondarma "Qərbi Ermənistan" adlandırılan torpaqların geri alınacağını söyləyir.

## Əsas hissə / Main part

1945-ci ilin iyul ayında ABŞ və İngiltərə dövlətləri Potsdam konfransında Boğazlar məsələsində SSRİ-nin mövqeyini müdafiə etməmişdilər. SSRİ-nin Türkiyə Cümhuriyyətinin Şərqi Anadolu ərazilərinə iddialarını isə ABŞ hökuməti SSRİ-nin və Türkiyə Cümhuriyyətinin daxili işi kimi qiymətləndirmişdi. Lakin ərazi iddialarının heç bir nəticəsi olmadığını anlayan SSRİ hökuməti 1946-cı ildə Boğazlar məsələsini yenidən gündəliyə gətirdi. Bu isə o demək idi ki, Türkiyə Cümhuriyyətinə qarşı ərazi iddiaları məsələsi SSRİ dövlətinin xarici siyasətində Türkiyə Cümhuriyyətinə qarşı əsas və həlledici amilə çevrilmişdi. Boğazlar məsələsinin gündəliyə gətirilməsində əsas məqsəd Sovet İttifaqı tərəfindən Türkiyəni hərbi-siyasi cəhətdən nəzarət altına almaq idi. Bunu başa düşən Türkiyə Cümhuriyyətinin Prezidenti İ.İnönü 1945-ci il, noyabr 1-də TBMM-də geniş məruzə ilə çıxış etdi və SSRİ rəhbərliyinin bütün ittiham və tələblərinə rədd cavabı verdi[3]. Belə bir çıxışa səbəb həm də Türkiyə, İngiltərə və ABŞ xüsusi xidmət orqanlarının əlinə SSRİ-nin niyyətlərini nümayiş etdirən sənədlərin keçməsi idi. Ermənilər həmin vaxt istəklərinə nail ola bilmədikləri üçün əsas zərbəni Ermənistan SSRİ-də, öz tarixi-etnik torpaqlarında yaşayan yerli azərbaycanlı əhaliyə endirdilər.

1945-ci il, mart ayının 19-da SSR hökuməti, hələ 1925-ci ildə imzaladığı Türkiyə Cümhuriyyəti ilə dostluq və neytrallıq haqqında müqaviləni birtərəfli qaydada pozdu. Bu, SSRİ-nin Türkiyə Cümhuriyyətinə qarşı ərazi iddiaları ilə bağlı müharibəyə hazırlaşması demək idi. Sadəcə olaraq, sovet-alman cəbhəsində müharibənin başa çatmasını gözləmək lazım gəlirdi. Belə bir məqamda ermənilərin Türkiyə Cümhuriyyətinə qarşı ərazi iddiası SSRİ-nin hücum planları ilə üst-üstə düşürdü. İ.Stalin çar Rusiyası ilə Osmanlı Türkiyəsinin 1914-cü il sərhədlərini bərpa etmək, yəni Qars, Ərdəhan və Trabzon vilayətlərini yenidən Türkiyə Cümhuriyyətindən qoparmaq istəyirdi. Türkiyədən alınacaq ərazilərdə əhalinin məskunlaşdırılması işi isə ermənilərin və gürcülərin hesabına həll

[3] Sovetskiy Soyuz na mezhdunarodnix konferentsiyax perioda Velikoy Otechestvennoy voyni 1941-1945 gg. Berlinskaya (Potsdamskaya) konferentsiya rukovoditeley tryox soyuznix derzhav – SSSR, SSHA i Velikobritanii. 17 iyulya–2 avqusta 1945 g. Sbornik dokumentov. 1984, str. 149.

edilməli idi. Bu məsələ, yuxarıda qeyd olunduğu kimi İ.Stalinlə ermənilərin VI katolikosu-Baş patriarxin müavini arxiyepiskop Gevorq Çörəkçi İ.Stalin katolikosa xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSRİ-ə köçürüləcəyini və bundan əlavə Türkiyə Cümhuriyyətindən qondarma "Qərbi Ermənistan" adlanan torpaqların geri alınacağını söyləmiş və katolikosun ərizəsinin üstünə "Razıyam Xalq Komissarlar Sovetinin sədri İosif Stalin 19.04.1945-ci il dərkənarını qoymuşdur[4]. Məhz bu görüşdən sonra Türkiyə Cümhuriyyətindən qoparılacaq Qars və Ərdəhan vilayətində məskunlaşmaq üçün xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR-ə köçürülməsinə və paralel olaraq,azərbaycanlıların Ermənistan SSR-dən – öz tarixi torpaqlarından deportasiya edilməsinə razılıq əldə olunmuşdu. Bu məsələdə A.Mikoyanın və A.Jdanovun da "xidmətləri" az rol oynamamışdı.

1945-ci il, noyabrın 21-də Ermənistan SSR rəhbərlərinin vəsatətini əsas götürərək, SSRİ XKS "Sovet Ermənistanına xarici ölkələrdən ermənilərin qaytarılmaları ilə bağlı tədbirlər" haqqında 2947 saylı qərar qəbul edir[5]. Bundan sonra Ermənistan hökumətinin yanında xaricdən gələn ermənilərin (repatriantların) qəbulu və yerləşdirilməsi üzrə xüsusi komissiya yaradılır. 1945-ci ilin əvvəllərində xarici ölkələrdə yaşayan 130 min ermənin Ermənistan SSR-ə köçürülməsi nəzərdə tutulmuşdu. 1946 – 1947-ci illərdə artıq Ermənistan SSR-ə xarici ölkələrdən 86,3 min erməni köçürülmüşdü[6]. SSRİ-nin Türkiyə Cümhuriyyəti üzərinə hücum etmək planından imtina etməsi Ermənistan SSR rəhbərlərinə fürsət verdi ki, xaricdən gələn ermənilərin daimi məskunlaşdırılması problemini həll etmək adı altında azərbaycanlıların öz tarixi-etnik torpaqlarından deportasiya olunmasına nail olsunlar.

1947-ci il, dekabr ayının 23-də İ.Stalin "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin 4083 saylı qərarını imzalayır. Bu qərarın imzalanmasına qədər mərkəzi hökumətin daxilində qəribə proseslər cərəyan etməyə başlayır. Ermənistan SSR-in rəhbəri Q.Arutinov təcili olaraq təxirəsalınmaz məsələlərin həlli üçün Moskvaya, İ.Stalinin yanına çağırılır. 3 dekabr, 1947-ci il tarixdə M.C.Bağırov azərbaycanlıların Ermənistan SSR-dən köçürülməsi təklifinə razılıq verməyə məcbur edilir. Bundan sonra SSRİ Nazirlər Soveti 10 dekabr, 1947-ci il tarixində ermənilərin SSRİ-yə köçürülməsi işinin davam etdirilməsi haqqında qərar qəbul edir. Ondan 4 gün sonra Azərbaycan SSR-nin rəhbəri M.C.Bağırov 4 – 5 ay müddətinə "məzuniyyətə" göndərilir. Bütün bunlardan

[4] Azərbaycan Respublikası Milli Arxiv İdarəsi. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər) (sənədli toplusu). Bakı, 2013, s.73-74-75. Jurnal «Otechestvenniye Arxivi». 1995, №3, str.64-66.

[5] http/az.azvizion az/hevvs. Php id.50898

[6] Nazim Mustafa. İrevan şehri. Ankara, 2015, 269 s.

sonra yuxarıda adı çəkilən qərar qəbul edilir[7]. Lakin bu qərarın qəbul edilməsinə qədər diqqəti cəlb edən bir sıra hadisələr baş verir. Belə ki, 1948-ci il, martın 3-də M.C.Bağırovun və Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.İ.Quliyevin Azərbaycan SSR rayon partiya komitələrinin katiblərinə və rayon İK-nin sədrlərinə vurulan teleqramlarda Ermənistan SSR-dən və ilk növbədə, İrəvan şəhərindən 1947-ci ilin dekabr və 1948-ci ilin yanvar-fevral aylarında 200-ə qədər ailənin icazəsiz olaraq Gəncə şəhəri və ətraf ərazilərə köçürülməsi barədə məlumatların verilməsi tələb olunur və bu işin yoxlanılması Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə şöbəsinin rəisi N.A.Brutensə tapşırılır[8]. N.A.Brutensin Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.İ.Quliyevə tam məxfi qrifi ilə ünvanladığı sənəddə (sənəd №10) onun Gəncə (o zaman Kirovabad) şəhər soveti sədrinin müavini Abdullayev və şəhərin Nizami rayonu icraiyyə komitəsinin sədri Namazovla keçirdiyi görüşlər haqqında məlumat verilir, lakin icazəsiz köçənlərin sayının bilinmədiyi göstərilir. Məlumatda göstərilir ki, köçüb gələnlər Gəncə şəhəri yaxınlığında saldıqları Yeni İrəvan qəsəbəsində yaşayırlar. Köçüb gələn 200 ailədən 50 ailə Gəncə şəhərində,qalanları isə Qazax, Ağstafa, Şəmkir və Gədəbəy rayonları ərazilərində məskunlaşmışlar. Həmçinin verilən məlumatda İrəvan şəhərindən köçən 50 ailənin hamısının Gəncə şəhərində məskunlaşması qeyd edilməklə bərabər, onların əksəriyyətinin İrəvanda ticarət və ictimai iaşə sistemlərində çalışdıqları üçün burada onların çoxunun işsiz qaldıqları göstərilir[9]. Təkcə bu faktın özü  1945–1946-cı illərdə Ermənistan SSR rəhbərliyinin və erməni-qriqorian kilsəsinin İrəvan şəhəri və ətraf rayonlarda yaşayan yerli azərbaycanlı əhali üçün dözülməz şərait yaratdıqlarını təsdiq edir. Elə bu səbəbdən də yerli azərbaycanlı əhali öz doğma torpaqlarını tərk etmək məcburiyyətində qalmışlar. Bütün bu vəziyyətdən İ.Stalinin xəbəri var idi və 1948-ci il, mart ayının 10-da o, SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 saylı ikinci qərar qəbul etdi. Bu qərarlar daşnak ruhlu Ermənistan SSR rəhbərlərinə yerli azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasətini açıq-aşkar dövlət səviyyəsində həyata keçirilməsi üçün hüquqi əsas verdi. 1947-ci il, 23 dekabr tarixli qərardan göstərildi ki, "könüllülük prinsipi" əsasında Ermənistan SSR-dən 1948 – 1950-ci illərdə 100 min azərbaycanlı köçürülsün. 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min

---

[7] Politbyuro TSK VKP(b) VKP(b). Povestki dlya zasedaniy 1919-1952. Kataloq. TSH, 1940-1952, s.497-449; TSK VKP(b) i reqional'nıye partiyniye komiteti. 1945–1953. Moskva, 2004, s.338.

[8] Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası 1948–1953-cü illər) (sənədlər toplusu). Bakı, 2013, s.88.

[9] Yenə orada, səh.94.

nəfərin köçürülməsi nəzərdə tutulurdu[10]. Qeyd etmək lazımdır ki, Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin rəisi vəzifəsindən milliyyətcə erməni olan N.A.Brutens azad edilir və onun yerinə N.D.Allahverdiyev təyin edilir. N.D.Allahverdiyevin 4 iyun, 1951-ci il, 239 saylı, Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.İ.Quliyevə ünvanladığı "Ermənistan SSR-nin dağlıq bölgələrindən köçürülmüş 215 ailənin məskunlaşma yerində iqlim şəraitinə uyğunlaşmayaraq, geri, əvvəlki yaşayış yerlərinə qayıtmaları haqqında arayışda Ermənistan SSR Kənd Təsərrüfatı Nazirliyinin və Xalq Təsərrüfatının Qeydiyyatı İdarəsinin məlumatlarına istinadən, köçürülmə prosesinin əvvəlinədək, yəni 1948-ci ilədək Ermənistan SSR-də 25 min azərbaycanlı ailəsinin – təxminən 110000 nəfərin yaşadığı göstərilir ki, onlardan da 9000 ailə təxminən 35 000 nəfəri düzənlik ərazilərdə, qalan 75 min nəfər – yəni 16 000 ailə isə yüksək dağlıq ərazilərdə yaşayırdı[11]. Lakin qeyd etmək lazımdır ki, bu dövrə aid rəsmi dövlət sənədlərində Ermənistan SSR-də yaşayan azərbaycanlıların ümumi sayı ilə bağlı göstərilən rəqəmlər fərqliliyi ilə diqqəti cəlb edir. Belə ki, köçürmə prosesinin əvvəlini əks etdirən iki sənəddə "Xaricdən gələcək ermənilərin torpaq və yaşayış yerləri ilə təmin edilməsi üçün 130 min azərbaycanlının Ermənistan SSR-dən Azərbaycan SSR-in az məskunlaşmış, pambıqçılıq rayonlarına köçürülməsinə icazə verilməsi barədə Azərbaycan SSR və Ermənistan SSR-də yaşayan azərbaycanlıların sayı 130 min nəfər göstərildiyi halda, həmin dövrü əks etdirən,lakin 1951-ci il, 4 iyun tarixinə aid 239 saylı sənəddə isə onların sayının 110000 nəfər olduğu göstərilmişdi[12]. Bu qeyri-dəqiqlik belə bir fikri söyləməyə əsas verir ki, Ermənistan SSR rəhbərliyi bu respublikada yaşayan yerli azərbaycanlı əhalinin sayını qəsdən saxtalaşdırmışdı.

Qeyd etmək lazımdır ki, bu qərarların qəbul edilməsi, yerli azərbaycanlı əhalinin Ermənistan SSR-dən köçürülüb Azərbaycan SSR ərazisində yerləşdirilməsi probleminin bütün ağırlığı Azərbaycan SSR hökumətinin üzərinə qoyulmuşdu.

Köçürülmə prosesini sürətləndirmək məqsədi ilə Respublika Nazirlər Sovetinin qərarı ilə Nazirlər Sovetinin Köçürmə şöbəsinin Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.İ.Quliyev və Azərbaycan KPMK katibi H.Ə.Seyidov M.C.Bağırova 18 mart, 1948-ci il tarixdə (sənəd №1) "Azərbaycan SSR Nazirlər Soveti yanında köçürmə şöbəsi"nin yenidən qurularaq, onun bazasında Köçürmə İdarəsinin yaradılması və bu idarənin Ermənistan SSR-də müvəqqəti nümayəndəliyi-

[10] Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948–1953-cü illər) (sənədlər toplusu). Bakı, 2013, s.8.

[11] Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər) (sənədlər toplusu). Bakı, 2013, s.542.

[12] Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər) (sənədlər toplusu). Bakı, 2013, s.542.

nin təşkil edilməsi haqqında yazılı məlumat təqdim olunur və Azərbaycan SSR Nazirlər Sovetinin köçürmə məsələləri üzrə səlahiyyətli nümayəndəsi M.N.Məmmədov təyin edilir[13]. Bundan sonra isə azərbaycanlıların köçürülməyə razılıq vermələri üçün Azərbaycan SSR-dən elm, mədəniyyət və incəsənət xadimlərindən ibarət təbliğat briqadaları Ermənistan SSR-nin azərbaycanlılar yaşayan rayonlarına göndərilirdi. Lakin bütün görülən tədbirlərə baxmayaraq, Ermənistan SSR-nin bütün rayonlarında azərbaycanlılar bu zorakı köçürülmə aksiyasına etirazlarını müxtəlif formalarda bildirirdilər. Qeyd etmək lazımdır ki, mərkəzi hökumətin bu ədalətsiz qərarına yazılı şəkildə ilk etiraz edən Zəngəzurun Meğri rayonunun Nüvədi kəndinin əhalisi olmuşdur. 1948-ci il, aprelin 23-də Nüvədi kəndinin əhalisi adından ("Qırmızı sərhəd kolxozu") İ.V.Stalinə ünvanlanan məktubda bu kəndin 1920-ci ildən Azərbaycan SSR tərkibində olduğu göstərilir və qeyd olunur ki, bu kəndin ərazisi yenidən Azərbaycan SSR Zəngilan rayonu tərkibinə qaytarılsa, daha ədalətli olar. Məktubun sonunda ədalətli bir qərarın qəbul ediləcəyinə ümid ifadə olunur[14]. (sənəd № 52). Əslində, mərkəzi hökumət nümayəndələri və Ermənistan SSR rəhbərliyi heç bir müqavimətin və ya etirazın olmayacağına ümid bəsləyirdilər. Lakin onlar yanılmışdılar. Bu fikri təsdiq edən sənədlərdən daha biri Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Dövlət Arxivinin 411-ci fondunda saxlanılır. Ermənistan SSR-nin daxili işlər naziri, general-mayor Xoren Qriqoryanın (bu həmin Xoren Qriqoryan idi ki, 30-cu illərdə Azərbaycan SSR XDİK-nın müavini işləyərkən minlərlə azərbaycanlının günahsız yerə həbs olunmasına,sürgün edilməsinə və güllələnməsinə bais olduğunu öz anasına yazdığı məktubda etiraf etmişdi – C.B.) 1948-ci il, mayın 3-də Azərbaycan K(b)PMK-nın birinci katibi M.C.Bağırova ünvanlanan və "tam məxfi" qrifi altında uzun müddət gizli saxlanılan 11 səhifəlik arayışda köçürülməsi nəzərdə tutulan azərbaycanlı əhalinin əhvali-ruhiyyəsi öz əksini tapıb[15]. Arayışın giriş hissəsində göstərilir ki, "düşmən ünsürlər" bu köçürülməni SSRİ ilə Türkiyə Cümhuriyyəti arasında müharibə olacağı təqdirdə, azərbaycanlılara etimad göstərilməməsinin təzahürü kimi qiymətləndirirlər[16]. Qeyd etmək lazımdır ki, əgər Türkiyə NATO-ya üzv qəbul edilməsəydi və ABŞ-la strateji müttəfiqlik haqqında sənəd imzalamasaydı, SSRİ hökuməti Türkiyəyə qarşı müharibəyə başlayacaqdı. Həmin arayışın sonunda millətçi əhvali-ruhiyyəli ermənilərin də fikirləri yer alıb. X.Qriqoryanın M.C.Bağırova ünvanladığı məktubun sonunda Azərbaycan SSR və Türkiyə Cümhuriy-

[13] Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər) (sənədlər toplusu). Bakı, 2013, s. 95-96 (sənəd №11).

[14] Yenə orada, s.153-154 (sənəd №52).

[15] Azərbaycan Respublikası dövlət Arxivi, fond 411, siyahı 26, iş 34, vərəq 65.

[16] Yenə orada, səh. 65.

yətinə qarşı təcavüzkar mövqe tutan ermənilərin fikirlərinin qeyd edilməsi ona işarə idi ki, Ermənistan SSR-də ermənilərlə azərbaycanlılar bir yerdə yaşaya bilməzlər, ona görə də azərbaycanlıların köçürülməsi məsləhətdi. Məsələn, arayışda Ermənistan SSR Sosial Təminat Nazirliyinin Tədris Kombinatının texnologiya müəllimi Minas Arakelyanın dediklərindən sitat gətirir: "...Azərbaycanlıların Ermənistan SSR-dən köçürüləcəkləri məsələsi şübhə doğurmur. İlk növbədə, Araz və Yuxarı Arpaçay çaylarının sahillərində yaşayan azərbaycanlılar köçürüləcək. Sonra isə İrəvan şəhərindən azərbaycanlılar köçürüləcək. İlk növbədə, sərhəd rayonlarında yaşayan azərbaycanlılardan qurtulmaq tamamilə anlaşılandır, belə ki, onlar tez-tez dövlət sərhədini pozurlar. Türkiyə isə onlardan özü üçün casus yuvaları yaradır"[17]. İrəvan sakini Yervand Mesropyan öz qonşusu ilə söhbətində: "Azərbaycanlıları nəinki Ermənistandan, həmçinin Naxçıvandan da köçürmək, sonra isə bu ərazini Ermənistana birləşdirmək lazımdır" – demişdir[18]. Bundan sonra bu istiqamətdə real addımlar atan Ermənistan SSR rəhbərliyi 1948-ci ildə yalnız İrəvan şəhərində və onun Spandaryan, Stalin, Kirov, Molotov rayonlarından ümumilikdə 437 təsərrüfatın köçürülməsinə və 1886 nəfərin deportasiyasına nail olmuşdur[19]. Deportasiya olunanlar içərisində Azərbaycan Pedaqoji İnstitutunun 45 nəfərlik, Azərbaycan Pedaqoji Məktəbinin 83 nəfərlik heyəti var idi. Pedaqoji İnstitut Bakı şəhərinə, Pedaqoji Məktəb isə Göygöl rayonuna köçürüldü. İrəvan şəhəri və onun rayonlarından köçürülən azərbaycanlı əhali Azərbaycan SSR-in Bakı, Gəncə, Daşkəsən, Naxçıvan şəhərlərində, Göygöl, Şəmkir, Beyləqan və Quba rayonları ərazilərində yerləşdirilmişdi[20].

Fransadan gələn, vaxtilə daşnak ordusunda dəstə başçısı olmuş və Kirovakanda (1936-ci ilədək Böyük Qarakilsə – C.B.) yaşayan Sumbat adlı erməni deyirmiş: "Vaxtilə daşnaklar Naxçıvan MSSR-in Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qoysalar da, buna nail ola bilməmişdilər. İndi isə bu məsələni qoymaq vaxtıdır, beləliklə, Ermənistanın torpaqlarını genişləndirmək olar". "İrəvan şəhərindən 5000, Leninakan şəhərindən isə 250 nəfər azərbaycanlının köçürülməsi nəzərdə tutulmuşdu"[21]. Qeyd etmək lazımdir ki, 1949-cu ilə aid rəsmi sənədlərdə İrəvan şəhəri və onun rayonlarından Azərbaycan SSR-nin Göyçay, Yevlax, Saatlı və Salyan rayonlarına 8 təsərrüfat və 39 insanın köçürüldüyü qeyd edilmişdi[22]. Bu qeyri-insani siyasəti həyata keçirən Ermənistan SSR-nin rəhbərliyi

---

[17] Azərbaycan Respublikası Dövlət Arxivi, fond 411, siyahı 26, iş 34, vərəq 75.

[18] Yenə orada.

[19] Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər) (sənədlər toplusu). Bakı, 2013, s.244-245.

[20] Yenə orada.

[21] Yenə orada, səh. 241.

[22] Yenə orada.

növbəti ildə azərbaycanlı əhalinin köçürülməsi ilə bağlı qərar qəbul edir. Belə ki, Ermənistan SSR Nazirlər Sovetinin "1950-ci ildə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsinin planı" haqqında qərarı bu fikri təsdiq edir. Qəbul edilmiş qərara əsasən, 1950-ci ildə İrəvan şəhəri və onun Stalin, Kirov, Spandaryan və Mikoyan rayonlarından ümumilikdə 24 təsərrüfat və 102 nəfər şəxs Bakı şəhəri, Sabirabad, Beyləqan və Göyçay rayonlarına köçürülmüşdür[23].

1951-ci ilə aid rəsmi məlumatda isə İrəvan şəhərindən Sabirabad rayonuna 9 təsərrüfat və 42 nəfərin köçürüldüyü qeyd olunmuşdur[24]. 1952-ci ilə aid rəsmi məlumatda yenə Sabirabad rayonu ərazisinə İrəvan şəhərindən 22 təsərrüfatın və 73 şəxsin köçürüldüyü göstərilmişdir[25]. 1953-cü ilə aid məlumatda isə İrəvan şəhərindən 21 təsərrüfatın və 73 nəfərin köçürüldüyü qeyd olunsa da, onların Azərbaycan SSR-nin hansı bölgəsində yerləşdirildiyi göstərilməmişdir.[26] Beləliklə, 1948 – 1953-cü illər ərzində İrəvan şəhəri və onun rayonlarından Azərbaycan SSR-nin şəhər və rayonlarına 521 təsərrüfatın və 2215 nəfər azərbaycanlının köçürüldüyü rəsmi arxiv sənədləri ilə təsdiq olunur.

Ümumilikdə isə azərbaycanlı əhalinin Ermənistan SSR və onun paytaxtı İrəvan şəhərindən deportasiyasi prosesinin gedişatına nəzər saldıqda, məlum olur ki, 1947-ci il, dekabrın 23-də və 1948-ci il, martın 10-da qəbul olunmuş qərarlara əsasən, Ermənistan SSR ərazisindən Azərbaycan SSR ərazisinə 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə 50 min nəfər azərbaycanlı əhalinin köçürülməsi planlaşdırılsa da, onu həyata keçirmək mümkün olmamışdı. Belə ki, 1954-cü il, yanvarın 12-də Azərbaycan SSR Nazirlər Sovetinin qəbul etdiyi qərarda 1948-1953-cü illər ərzində Azərbaycan SSR ərazisinə 11914 təsərrüfat və 52956 nəfərin köçürüldüyü, o cümlədən Ermənistan SSR ərazisindən 9875 təsərrüfatın və 42190 nəfərin köçürüldüyü qeyd olunur. Lakin konkret olaraq Ermənistan SSR ərazisindən faktiki köçürmə planına görə, 1948-ci ildə 9652, 1949-cu ildə 12835, 1950-ci ildə 17155, 1951-ci ildə 5598, 1952-ci ildə 4928, 1953-cü ildə isə 2794 nəfərin köçürüldüyü nəzərə alınsa, onda bu dörd ildə, yuxarıda göstərildiyi kimi, Azərbaycan SSR ərazisinə köçürülənlərin sayı 52956 nəfər olmuşdur[27]. Həmişə SSRİ dövlətinin siyasi himayəsinə arxalanan Ermənistan SSR rəhbərliyi İ.Stalinin ölümündən sonra da öz cinayətkar əməllərindən əl çəkmədi. Azərbaycan SSR-dən Qarabağın dağlıq hissəsini qoparmaq üçün ən ağır cinayətlərə və təxribatlara əl atıldı. Bu məqsədlə Ermənistan SSR rəhbərliyi

[23] Yenə orada, səh. 491.

[24] Yenə orada, səh. 588.

[25] Yenə orada, səh. 635.

[26] Yenə orada, səh. 681.

[27] Yenə orada, səh.683.

1956-1967-ci illərdə SSRİ rəhbərləri N.S.Xruşşova və L.İ.Brejnevə müraciətlər ünvanladılar, lakin bu cinayətkar cəhdlərin qarşısı Azərbaycan SSR rəhbərliyi tərəfindən qətiyyətlə alınırdı. Buna cavab olaraq Ermənistan SSR-də, xüsusilə də İrəvan və digər şəhərlərdə yaşayan azərbaycanlı əhali mənəvi-psixoloji terrora məruz qaldı. 60-cı illərin əvvəllərində 600 nəfər əyani və qiyabi tələbənin təhsil aldığı İrəvan Pedaqoji İnstitutunun 4 fakultəsi, İrəvan Pedaqoji Texnikumu və İrəvan–Azərbaycan Dram Teatrı bağlandı. Hər il Ermənistan SSR-də orta məktəbi bitirən 5000-dən çox məzun Azərbaycan SSR-ə və digər respublikalara getmək məcburiyyətində qaldı[28]. Bu, yerli azərbaycanlı əhaliyə vurulan ən ağır mənəvi-mədəni və psixoloji zərbə idi. Erməni faşizmi özünün antiazərbaycan və antitürk mahiyyətini 1965-ci il,aprel ayının 24-də ermənilərin qondarma "soyqırımı" gününü qeyd etdikləri zaman göstərdi. Bu, həmin gün İrəvanın mərkəzində keçirilən mitinqdə səsləndirilən şüarlarda, sonra nəşr edilən 10 cildlik Ermənistan Milli Ensiklopediyasında və erməni yazıçı, şair və tarixçi alimlərinin saxtalaşdırılmış faktlarla dolu əsərlərində öz əksini tapdı[29].

XX əsrin 50–80-ci illərində Ermənistan SSR-dən və İrəvan şəhərindən azərbaycanlıların deportasiyası nəticəsində on minlərlə azərbaycanlı, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliklərinə, fiziki sarsıntılara və mənəvi soyqırımına dözməyərək həlak olurdular. Bu məsələ ilə bağlı ümummilli lider Heydər Əliyev çıxışlarının birində demişdi: "Ermənistanın çox gözəl iqlimə malik olan torpaqlarından, yəni bu torpaqlar vaxtilə Azərbaycan torpaqları olub, insanları gətirib evsiz-eşiksiz Mil-Muğan çöllərinə salanda, əlbəttə ki, onlar o şəraitdə yaşaya bilməyəcəkdilər. Məlumdur ki, o vaxt bir çox insanlar qırıldı,tələf oldu, əzab-əziyyət çəkdilər. Hətta məlumdur ki, bəziləri burada yaşaya bilmədilər, gizli olaraq qayıdıb öz yerlərinə, evlərinə getdilər. Nə qədər əzab-əziyyət çəkdilər. Hesab edirəm ki, bu, bizim xalqımıza qarşı edilən ən böyük ədalətsizlikdir"[30].

Azərbaycan Respublikasının Prezidenti, ümummilli lider Heydər Əliyevin 1997-ci il, dekabrın 18-də imzaladığı "1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi ata-baba torpaqlarından kütləvi surətdə deportasiyası haqqında"[31] fərmanda bu siyasi qərar Azərbaycan xalqına qarşı növbəti tarixi deportasiya və soyqırımı cinayəti kimi qiymətləndirildi və hə-

[28] Israfil Mamedov. Ob istorii, iskonnoy zemle i gorkoy sudbe azerbaydzhanttsev, izgnannix iz nineshney Respubliki Armeniya. Baku, 2009 g., str. 239.

[29] Yenə orada, səh. 240.

[30] H.Əliyev. Müstəqilliyimiz əbədidir. (çıxışlar, nitqlər bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar). Bakı, 2004, səh. 397.

[31] H.Əliyev. Müstəqilliyimiz əbədidir.( çıxışlar, nitqlər bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar). Bakı, 2004, s.397–398.

min fərmanla dövlət komissiyası yaradıldı. Dövlət komissiyasına tapşırıldı ki, 1948–1953-cü illərdə və ondan sonrakı dövrdə azərbaycanlıların Ermənistandan – öz tarixi-etnik torpaqlarından kütləvi deportasiyasının hərtərəfli tədqiq edilməsini, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsini və onun beynəlxalq ictimaiyyətə çatdırılmasını təmin etsin.

Qeyd etmək lazımdır ki, 1953-cü ildən 1987-ci ilə qədər Azərbaycan SSR-nin və SSRİ-nin dövlət rəhbərliyində çalışan Heydər Əliyev erməni separatçılarının və onu müdafiə edən SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı hazırladıqları bütün cinayətkar planların pozulmasına nail ola bilmişdi. Burada bir mühüm məqam xüsusi olaraq qeyd edilməlidir ki, məhz Heydər Əliyevin 1953–1987-ci illərdə erməni faşizminin Azərbaycan xalqına qarşı törədə biləcəyi cinayətlərin qarşısının vaxtında alınmasında müstəsna xidmətləri vardır. Buna görə də SSRİ rəhbərliyində Heydər Əliyevi özünün ən real rəqibi hesab edən M.Qorbaçov onu tutduğu vəzifədən uzaqlaşdırmaq üçün qərb dövlətlərinin və SSRİ dövlətinin hakimiyyət strukturlarında kök salmış cinayətkar erməni millətçilərinin köməyinə arxalanaraq, ən çirkin üsullara əl atdı. Azərbaycan SSR-nin özündən, ilk növbədə, DQMV-nin əhalisi adından mərkəzi hökumətin ünvanına Heydər Əliyevi nüfuzdan salmaq və ləkələmək üçün böhtan xarakterli məktubların yazılması və teleqramların vurulması təşkil olunur. Keçmiş SSRİ Nazirlər Sovetinin sədri N. Rıjkovun etirafına görə, Azərbaycan SSR-dən Heydər Əliyevi ləkələmək üçün göndərilən məktub və teleqramların həcmi 100 clddən çox idi. Bununla kifayətlənməyən M.Qorbaçov Heydər Əliyevə qarşı sui-qəsdin təşkil edilməsi barədə məxfi göstəriş verir[32]. Buna görə də M.S.Qorbaçovun 1987-ci il, oktyabr ayının 20-də Heydər Əliyevin SSRİ rəhbərliyində tutduğu yüksək vəzifədən uzaqlaşdırılmasına nail olduqdan sonra ermənilərin öz cinayətkar niyyətlərini reallaşdırmaq ümidləri daha da artdı. Rəsmi Moskva 1987-ci ilin noyabr ayında, Parisdə M.S.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri olan akademik Abel Aqanbekyanın dili ilə Qarabağ hərəkatına müsbət münasibətini, qeyri-rəsmi olsa da, bütün dünyaya bildirməkdən çəkinmədi. A.Aqanbekyan "Le Humanite" qəzetinin 18 noyabr, 1987-ci il tarixli nömrəsində dərc olunmuş müsahibəsində Azərbaycan SSR ərazisi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə verilməsinin məqsədəuyğun olmasını və bu barədə dövlət başçısına təkliflər verdiyini bildirmişdi"[33]. 1988-ci il, fevral ayının 26–27-də SSRİ dövlət xüsusi xidmət orqanlarının razılığı ilə ermənilər Sumqayıt şəhərində Azərbaycan xalqını dünya ictimaiyyəti qarşısında gözdən salmaq üçün təxribat törətdilər. Sumqayıt təxribatının törədilməsində əsas məqsəd Dağlıq Qarabağı və Ermənistan SSR ilə həm-

[32] Yenə orada, səh. 182.

[33] Azərbaycan tarixi.VII cild, 2008, s. 257.

sərhəd olan Zəngəzurun şərq və cənub-şərq hissəsini – Azərbaycan SSR-in Laçın, Qubadlı və Zəngilan rayonlarını ələ keçirmək idi. Bu plana Kəlbəcər rayonunun işğalı da daxil edilmişdi. Bu məsələ ilə bağlı Azərbaycan Respublikası Prezidentinin beynəlxalq məsələlər üzrə müşaviri, mərhum Vəfa Quluzadə 1999-cu ildə nəşr etdirdiyi "Gələcəyin üfüqləri – Azərbaycan Respublikasının xarici siyasəti haqqında düşüncələr" (Bakı, 1999) əsərində Ermənistan Prezidentinin beynəlxalq məsələlər üzrə keçmiş müşaviri Jirayr Libaridiyanın belə bir planın Rusiya Federasiyasının hərbi-siyasi dairələri tərəfindən hazırlandığı faktını etiraf etdiyini yazır[34]. Məsələnin maraqlı tərəfi odur ki, ermənilərin Kəlbəcər rayonunu işğal etməsindən sonra Vəfa Quluzadə iki dəfə RF XİN-nin müavini Adamişin tərəfindən Moskvaya dəvət edilir və aparılan danışıqlar zamanı RF-sı qoşunlarının Azərbaycan Respublikası ərazisində yerləşdiriləcəyinə razılıq veriləcəyi təqdirdə Kəlbəcər rayonunun erməni işğalından azad ediləcəyi vəd olunmuşdu. Bunun Azərbaycan Respublikası üçün hansı ağır nəticələr verəcəyini əvvəlcədən bilən dövlət müşaviri V.Quluzadə RF-sı tərəfinin təklifini qətiyyətlə rədd etmişdi. 1988-ci ildə, Sumqayıt təxribatı törədildikdən sonra yaranmış vəziyyətlə bağlı keçmiş SSRİ dövlətinin rəhbəri M.S.Qorbaçovun sədrliyi ilə Sov.İKP Siyasi Bürosunun 1988-ci il, fevralın 29-da keçirilən iclasında "Azərbaycan SSR və Ermənistan SSR-də baş vermiş hadisələrlə bağlı əlavə tədbirlər haqqında" adlı məsələ müzakirəyə çıxarılır. İclasa sədrlik edən M.Qorbaçov öz çıxışında Azərbaycan və Ermənistan xalqlarına etdiyi müraciətin verdiyi "müsbət" təsirdən danışmaqla bərabər, İrəvan şəhərinin küçələrində milyondan çox insan olduğunu, onlar tərəfindən antiazərbaycan və antitürk şüarları səsləndirildiyini, nümayişçilər arasında vərəqələr yayıldığını və bu vərəqələrdə: "...bəsdir daha, mitinq keçirdiniz, qurtarın, ermənilər, silahlanın və türkləri əzin" – sözlərinin yazıldığını və şəhərdə Sovet Ordusu qərargah rəisinin oturduğu binanın pəncərəsinə güllə atıldığını sadalamaqla bərabər, ermənilərin "çox nizam-intizamlı olduqlarını, heç bir antirus, antisovet şüarını səsləndirmədiklərini, əllərində Sov.İKP MK Siyasi Bürosu üzvlərinin portretlərini tutduqlarını söyləyir"[35]. Bundan əlavə, o, çıxış edənlərin hamısının Qarabağın Ermənistana birləşdirilməsini tələb etdiklərini deyir, bu məsələnin İ.Stalinin dövründə düzgün həll edilmədiyini, bu məsələnin yalnız indi, yəni "yenidənqurma" və "demokratiya" çərçivəsində düzgün həllinin mümkün olduğunu söyləyir. O, çıxışının davamında keçirilən mitinqdə ermənilərin "böyük və nəhəng" ictimai xadimlərinin iştirak etdiklərini və öz çıxışlarında haq-

[34] Vəfa Quluzadə. Gələcəyin üfüqləri. Azərbaycan Respublikasının xarici siyasəti haqqında bəzi düşüncələr. Bakı, 1999.

[35] Zasedaniya Politbyuro TSK KPSS Sov. sokretarya. Eks. yedinstvenniy (rabochaya zapis) TSXSD kollektsiya rassekrechannix dokumentov (Jurnal «Rodina», №4, 1994 g, str. 82.

lı olduqlarını qeyd etməklə bərabər, DQMV partiya komitəsi katibinin 14 il ərzində bir dəfə də olsun Ermənistana getmədiyini, guya XX əsrin əvvəllərində Naxçıvan MR ərazisində "ermənilərin soyqırıma məruz qaldıqlarını" və bu sərhədyanı ərazidə ermənilərə məxsus "soyqırım məzarları"nın olduğunu ön plana çəkir və deyir ki, Naxçıvanda vaxtilə "mövcud olan erməni mədəniyyətinə aid 90 abidə"dən yalnız biri qalmışdır[36]. Məsələnin maraqlı tərəfi odur ki, M.Qorbaçova bu səviyyədə tamamilə saxtalaşdırılmış məlumatları kim təqdim etmiş və onu bu yalanlara inandıra bilmişdir? Əslində, bizim üçün bu heç də sirr deyil, çünki burada təəccüblü bir şey də yoxdur, çünki M.Qorbaçov özü də ona verilən bu məlumatların saxta olduğunu çox yaxşı bilirdi. Bu yalanlar ona Heydər Əliyevi siyasi səhnədən uzaqlaşdırmaq və onu məhv etmək üçün lazım idi. İclasın stenoqramı ilə tanışlıq belə bir fikir söyləməyə imkan verir ki, bu saxta məlumatları ona köməkçisi, əslən Dağlıq Qarabağdan olan,  XX əsrin 70-ci illərində Sov.İKP MK-da B.Ponomaryovun müavini işləmiş Georgi Xosrovoviç Şahnəzərovun birbaşa iştirakı ilə təşkil edilmiş görüşdə, erməni faşist ideologiyasının əsas nümayəndələri olan Silva Kaputikiyan və Zori Balayan tərəfindən verilmişdi. M.Qorbaçov 1996-cı ildə nəşr etdirdiyi "Həyat və islahatlar" [«Жизнь и реформы». Москва, 1996, c. 502–509] kitabında bunu etiraf edir. Sov.İKP MK Siyasi Bürosunun iclasında etdiyi çıxışında 1969–1982-ci illərdə Azərbaycan SSR-ə rəhbərlik etmiş, 1982–1987-ci illərdə Siyasi Büronun üzvü olmuş, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləmiş, İngiltərə, ABŞ dövlətlərinin, rus-slavyan imperiyapərəst qüvvələrinin və onların əlində oyuncaq olan ermənilərin təzyiqi və M.Qorbaçovun başçılığı ilə SSRİ rəhbərliyindən uzaqlaşdırılmış Heydər Əliyevin adını çəkir. Stenoqramın 7-ci səhifəsində M.Qorbaçov erməni katolikosu II Vazgenin 1976-cı ildə Heydər Əliyev tərəfindən qəbul edilmədiyini, onun verdiyi təkliflərə respublika rəhbərinin etinasız yanaşdığını və katolikosun bu günədək gözlədildiyini "erməni xalqına" Azərbaycan SSR rəhbərinin düşmən münasibət bəsləməsi faktı kimi qələmə verir. Etdiyi çıxışında hər an Heydər Əliyevi ittiham edən M.Qorbaçov Dağlıq Qarabağda, onun mədəniyyət mərkəzi Şuşa şəhərində olarkən "Qarabağ həmişə Azərbaycanın olub və bundan sonra da olacaqdır"[37] bəyanatını bir fakt olaraq ön plana çəkərək, onu baş verən hadisələrin təşkilatçısı və günahkarı kimi təqdim edir. Bu zaman M.Qorbaçov etiraf edir ki, bu məlumatları ona görüş zamanı Zori Balayan vermişdir, lakin həmin dövrdə M.S.Qorbaçov, ilk növbədə, Heydər Əliyevin, sonra isə tanınmış Azərbaycan ziyalılarının təkidli tələblərinə baxmayaraq, nə onlarla görüşür, nə də

[36] Zasedaniye Politbyuro TSK KPSS. Sov. sekretno. Ekz. yedinstvenniy (rabochaya zapis) TSXSD kollektsiya rassekrechannix dokumentov (Jurnal «Rodina»), №4, 1994 g., str. 81.

[37] Yenə orada.

ki, qəbul etməyə razılıq verir. Stenoqramla hərtərəfli tanışlıq göstərir ki, yalnız SSRİ rəhbəri M.S.Qorbaçov deyil, o cümlədən bütün Siyasi Büro üzvlərinin tam əksəriyyətinin Azərbaycan xalqına, onun rəhbərinə olan düşmən münasibəti tarixi ənənə xarakteri daşımaqla bərabər, həm də Çar Rusiyası, Sovet Rusiyası və SSRİ dövlətinin öz hərbi-siyasi maraqlarını qorumaq üçün ermənilərə olan himayədarlıq hissindən, onların saxta məlumatlarından, öz milli mənafelərini Azərbaycan xalqının hesabına təmin etmək maraqlarından irəli gəlirdi. Bütün 1988-ci il ərzində Azərbaycan xalqının təkidli etirazlarına baxmayaraq, ermənilərin və mərkəzi hökumət nümayəndələrinin verdikləri saxta məlumatları əsas götürən M.Qorbaçovun cinayətkar münasibəti nəticəsində 1988-ci il, noyabrın 23-dən dekabrın 1-nə qədər Ermənistan SSR ərazisindən, öz tarixi etnik torpaqlarından – İrəvan şəhəri də daxil olmaqla, 185 kənddən və başqa yaşayış məntəqələrindən 253 min azərbaycanlı deportasiya olundu. Onlara məxsus 31.000 ev, şəxsi təsərrüfat, 165 kollektiv təsərrüfatın əmlakı talandı, 214 nəfər öldürüldü, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi, qız-gəlinlərin namusu təhqir olundu. 15 min dən çox kürd və bir neçə min milliyyətcə rus olan əhali Ermənistan SSR-dən çıxarıldı[38].

Bütün azərbaycanlı əhali 1988-ci il, noyabr ayının 23-dən dekabrın 1-nə qədər olan müddət ərzində öz tarixi və etnik torpaqlarında etnik təmizləmə, deportasiya və soyqırımı cinayətlərinə məruz qaldıqdan sonra, SSRİ hökuməti 1988-ci il, dekabrın 6-da qəribə bir qərar qəbul edir. Bu qərar belə adlanır: "Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin Azərbaycan SSR və Ermənistan SSR yerli orqanlarının ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vətəndaşların öz daimi yaşayış yerlərindən məcburi tərk etmələrinə səbəb olacaq hərəkətlərin yolverilməzliyi haqqında"[39]. Bütün Ermənistan SSR ərazisi Sovet Ordusunun ermənilərə göstərdiyi yardım nəticəsində yerli azərbaycanlı əhalidən boşaldıldıqdan sonra belə bir qərarın qəbul edilməsi SSRİ dövləti və M.S.Qorbaçov başda olmaqla, cinayətkar rejimin riyakarlığının bariz nümunəsi idi.

Bu fikri təsdiq edən digər bir sənəd də odur ki, 1989-cu ilin sonunda keçmiş SSRİ-də aparılmış əhalini siyahıyaalmanın nəticələrinə görə, Ermənistan SSR-də 1989-cu ilə aid rəsmi məlumata görə, guya 84 min 860 nəfər azərbaycanlının yaşadığı göstərilmişdir. Bu məlumatın nə qədər saxta və yalan olduğu məlumdur, çünki Azərbaycan Respublikası Milli Məclisinin Arxivində 1988-ci ilin sonuna aid olan rəsmi məlumatda göstərilir ki, 1988-ci il, noyabr ayının 28-dən dekabr

---

[38] Azərbaycan tarixi, VII cild. 2008, s. 258.

[39] K soyuzu sovershennix narodov. Sbornik dokumentov KPSS, zakoni posvyashyonnix probleme natsionalno-gosudarstvennogo suvereniteta. (Sostavitel sbornika i avtor vvedeniya: (predsedatel V.D.Grishenko, A.I.Dorochenko, M.M.Morozova. Moskva, 1991, str. 328-329.

ayının 1-nə qədər Ermənistan SSR-dən SSRİ dövlətinin razılığı və bilavasitə Sovet Ordusu hərbi hissələrinin yardımı ilə 230 min nəfər azərbaycanlı sürgün olunmuşdu[40]. Buna görə də rəsmi dövlət sənədində 1989-cu ildə Ermənistan SSR-də 84860 nəfər azərbaycanlının yaşadığını göstərmək ən azı riyakarlıqdır.

**Qeyd:** Qədim Azərbaycan şəhəri İrəvanı 1991-ci il, yanvarın 19-da tərk edən sonuncu azərbaycanlı erməni faşizminin ifşa olunmasında müstəsna xidmətləri olan, Dövlət Mükafatı laureatı, tarixçi alim, tanınmış ziyalı, mərhum İsrafil Məmmədov və ailəsi olmuşdur.

## Nəticə / Conclusion

II Dünya müharibəsinin başa çatması ərəfəsində SSRİ dövlətinin siyasi himayədarlığını görən ermənilər Azərbaycan xalqına qarşı yenidən ərazi iddiaları qaldırdılar. Azərbaycan SSR rəhbərliyindən rədd cavabı alan ermənilər Ermənistan SSR-də yaşayan yerli azərbaycanlı əhaliyə qarşı ən ağır cinayətlərə – deportasiya, etnik təmizləmə cinayətlərinə əl atdılar. Göstərilən dövrlərdə İrəvan şəhəri və Ermənistan SSR-də yaşayan yerli Azərbaycan xalqına qarşı törədilən cinayətlər nəticəsində onlar öz tarixi torpaqlarından – Vətənlərindən məhrum edildilər. O vaxtkı SSRİ dövlətinin rəhbəri İ.V.Stalinin II Dünya müharibəsinin sonlarına yaxın yeritdiyi antitürk siyasəti onun türk xalqlarına nifrətinin bariz nümunəsi idi. Bu məkrli siyasi niyyətin gerçəkləşməsi üçün Turkiyə Cümhuriyyətinə qarşı qaldırılan əsassız ərazi iddiaları, bir çox cəhdlərə baxmayaraq, nəticəsiz qaldı. İddiaya əsasən, Türkiyə Cümhuriyyətinin şərqi Anadolu torpaqları Ermənistan SSR və Gürcüstan SSR ərazisinə qatılmalı idi. Bu çirkin oyunun davamı olaraq 1947–1948-ci illərdən başlayaraq Ermənistan SSR-də və İrəvanda yaşayan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirildi. Azərbaycanlılara məxsus bir çox elm və mədəniyyət ocaqlarının (İrəvan Müəllimlər Seminariyası, İrəvan Pedaqoji İnstitutunun 4 fakultəsi, İrəvan Pedaqoji Texnikumu və İrəvan–Azərbaycan Dram Teatrı və s.) fəaliyyəti dayandırıldı. Bu da xalqımızın inkişaf etməkdə olan elm və mədəniyyətinə mənəvi-psixoloji zərbə oldu.

SSRİ dövləti və Ermənistan SSR-in təcavüzkar siyasəti nəticəsində 1988-ci ilin noyabr – dekabr aylarında azərbaycanlılar növbəti dəfə deportasiyaya məruz qaldılar – 230 000 nəfər azərbaycanlı öz tarixi torpaqlarından məcburi şəkildə çıxarıldı. Başqa ölkələrdə yaşayan ermənilər isə kütləvi şəkildə Ermənistan SSR və İrəvana yerləşdirildi...

[40] Natsional'niy sostav naseleniy po respublikam SSSR. Armyanskaya SSR; Həsənov L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında Sovet siyahıya almaları əsasında. Bakı, BDU, 2003, 302 s., s.112; Azərbaycan Respublikası Milli Məclisinin Arxivi, f.2941, siy.1, iş 274, v.54.

**Məqalənin aktuallığı.** Məqalə bu gün də ermənilərin və çar Rusiyası, o cümlədən sovet Rusiyasının iç üzünü açan, azərbaycanlıların deportasiyasının tarixi sənədlərlə sübuta yetirilməsini (1948–1953, 1988–1991-ci illər) açıqlayan tutarlı mənbə kimi aktualdır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə keçmiş SSRİ dövlətinin Türkiyə Cümhuriyyəti və Azərbaycan SSRİ-yə qarşı yeritdiyi məkrli siyasətində gizli qalmış bir çox tarixi faktların işıqlandırılması elmi yenilik kimi oxucuların diqqətinə çatdırılır.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədə araşdırılaraq üzə çıxarılmış tarixi faktlar Azərbaycan xalqının böyüməkdə olan və gələcək nəsillərinin maariflənməsi, məlumatlanması istiqamətində böyük əhəmiyyət kəsb edir.

Müəllimlər, tələbələr, mövzu ilə maraqlanan tədqiqatçılar məqalədə verilən bu faktlardan bəhrələnə, öz tədqiqatlarında istifadə edə bilərlər.

## İstifadə olunmuş ədəbiyyat / References

1. Azərbaycan Respublikası Dövlət Arxivi, fond 411, siyahı 26, iş 34, s. 75, s. 65.
2. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi. (2013). Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər) (sənədlər toplusu). Bakı, s. 73–75.
3. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi, fond 2941, siy.1, iş 274, v.54.
4. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. (2013). Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948–1953-cü illər) (sənədlər toplusu). Bakı, s.88, s. 244–245.
5. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. (2013). Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948–1953-cü illər) (sənədlər toplusu). Bakı, s. 8, s. 542.
6. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. (2013). Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948–1953-cü illər) (sənədlər toplusu). Bakı, s. 95–96 (sənəd №11).
7. Azərbaycan tarixi. (2008). VII cild. s. 257–258.
8. Əliyev H. Müstəqilliyimiz əbədidir. (çıxışlar, nitqlər bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar). (2004). Bakı, s. 397–398.

9. Həsənov L. (2003). Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında sovet siyahıyaalmaları əsasında. Bakı, BDU, 302 s., s.112.
10. Quluzadə V. (1999). Gələcəyin üfüqləri. Azərbaycan Respublikasının xarici siyasəti haqqında bəzi düşüncələr. Bakı.
11. Nazim Mustafa. (2015 ). İrevan şehri. Türk-islam varlığı nasıl yok edildi. Ankara, Berikan, 269 s.
12. Beriya S. (2000). Moy otets Beriya. V koridorax stalinskoy vlasti. Moskva, str. 256.
13. Sovetskiy Soyuz na mezhdunarodnix konferentsiyax perioda Velikoy Otechestvennoy voyni 1941–1945 gg. Berlinskaya (Potsdamskaya) konferentsiya rukovoditeley tryox soyuznix derjav – SSSR, SCHA i Velikobritanii. 17 iyulya–2 avqusta 1945 g. Sbornik dokumentov. 1984, str.149.
14. Politbyuro TSK RKB (b) VKP (b). Povestki dlya zasedaniy 1919–1952. Kataloq. T.SH, 1940–1952, s.497–449; SK VKP (b) i regional'niye partiyniye komiteti. 1945–1953. Moskva, 2004, s.338.
15. Mamedov I. (2009). Ob istorii, iskonnoy zemle i gorkoy sudbe azerbaydzhantsev, izgnannix iz nineshney Respubliki Armeniya. Baku, str. 239.
16. Zasedaniya Politbyuro TSK KPSS Sov. sekretaro. Ekz. yedinstvenniy (rabochaya zapis) kolleksiya rassekrecennix dokumentov (Jurnal «Rodina», №4, 1994, g., str. 82.
17. Zasedaniye Politbyuro TSK KPSS. Sov. sekretno. Ekz. yedinstvennıy (rabochaya zapis). SXSD kolleksiya rassekrechennix dokumentov (Jurnal «Rodina», №4, 1994 g., str. 81.
18. Politbyuro TSK VKP(b) RKP(b). Povestki dlya zasedaniy 1919–1952. Katalog. T.SH, 1940–1952, s.497–449; SK VKP(b) i regionalniye partiyniye komiteti. 1945–1953. Moskva, 2004, s.338.
19. K soyuzu sovershennix narodov. Sbornik dokumentov KPSS, zakoni posvyashonnix probleme nachional'no-gosudarstvennogo suvereniteta. (Sostavitel sbornika i avtorvvedeniya: (predsedatel). V.D.Grishenko, A.İ.Dorochenko, M.M.Morozova. Moskva, 1991, str. 328–329.
20. Natsionalniy sostav naseleniya po respublikam SSSR. Armyanskaya SSR. Jurnal «Otechestvenniye Arxivi». 1995, №3, str.64–66.
21. http/az.azvizion az/hevvs. Php id.50898.